# Sülhə yeganə zəmanət İlham Əliyevin modelidir

## ABŞ və Qərb regionla bağlı bütün məsələlərdə Azərbaycanla hesablaşmalıdırlar

**Brüssel görüşü Ermənistan üçün "soyuq duş" oldu...**

Hayastanda gözlənilən ajiotajı yaratmadan çox sönük keçən görüşdə "söz" verildiyi kimi, guya heç bir siyasi müzakirə aparılmadı. Həm ABŞ, həm də Avropa İttifaqı Ermənistana yalnız maliyyə və informasiya dəstəyinin veriləcəyini "bəyan etdi". Aİ 4 il ərzində bu ölkəyə 270 milyon avro qrant, Birləşmiş Ştatlar isə 65 milyon dollardan çox yardım etmək qərarındadırlar.

Gözlənildiyi kimi, ABŞ Dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borel mətbuat qarşısında çıxışlarında Ermənistana "təhlükəsizlik təminatı" və ya hərbi yardım veriləcəyi barədə heç nə demədilər. Çünki üçlüyün keçirdiyi görüşün məqsədi tam başqa idi...

Brüssel görüşünün görünən tərəfi Ermənistana iqtisadi, humanitar və siyasi dəstək göstərmək adı ilə təqdim edilsə də, əsl niyyət Hayastanı silahlandırmaq, yeni münaqişə ocağı yaratmaq və Rusiyaya qarşı "ikinci cəbhə"nin açılması planının müzakirə edilməsi üçün ilk raundu sayılırdı.

Görüşdə səslənən fikirlər, verilən vədlər bir daha təsdiq etdi ki, Qərb konkret olaraq Ermənistanı nəzarəti altına alaraq vassalları siyahısına daxil edir. Cənubi Qafqazda yeni status-kvonu qəbul edə bilməyən güclər ayırıcı xətlərin çəkilməsi üçün məkrli planlar hazırlayırlar.

Əslində, bu plan yeni deyil. Hazırda baş verənlər illər öncə hazırlanan çirkli oyunların yeni formatda davamıdır. Çünki bundan əvvəl də Qərbdə Gürcüstanda inqilab ssenarilərini reallaşdırmaq, onun vasitəsilə Ermənistanın Qara dənizə çıxışını təmin etmək planı olub. Lakin Azərbaycanın qüdrətlənməsi və 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Qərb ikinci plana keçib - Ermənistanın tamamilə nəzarətə götürülməsi...

Görüşdən sonra ABŞ-nin Dövlət katibi Entoni Blinkenin sosial şəbəkələrdən birində yazdığı "Birləşmiş Ştatlar möhkəmlənmək və regional inteqrasiya yolu ilə Ermənistana iqtisadi rifah və sabitliyə nail olmaqda əzmlə kömək edir" fikri də bunu bir daha təsdiqləyir.

Qərb və ABŞ nə qədər təkzib etməyə çalışsa da, əsl niyyətin nəyə xidmət etdiyi hər kəsə bəllidir. İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqları qəbul etməyənlər Cənubi Qafqaza daxil olmağa və burada möhkəmlənməyə can atırlar. Təbii ki, bu amil də region üçün çox təhlükəlidir. Çünki ən azı bəzi postsovet ölkələrinin təcrübəsinə nəzər yetirsək, Qərbin vədlərinə inananların aqibətinin fəlakətli sonluğuna şahidlik etmişik. Qərb, xüsusən də ABŞ indi də Cənubi Qafqazda bu fəlakətli vəziyyəti Ermənistanın əli ilə reallaşdırmağa çalışır. Bunu söyləməyə yetərincə faktlar da mövcuddur.



Məsələn, son aylarda ABŞ-nin hərbi və xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən və Vaqner stilində fəaliyyət göstərən bir sıra şirkətlərin artıq Ermənistanda təlimlərə başlaması, ABŞ dövlət xətti ilə də Ermənistanda genişmiqyaslı militarizasiya proqramının həyata keçirilməsinə start verilməsi, Ermənistan ordusunun yenidən qurulması, xüsusi xidmət orqanlarının fəaliyyətinin təşkili (bu orqanların əməkdaşları ABŞ, Fransa və digər Qərb ölkələrində hazırlanacaq, onlar üçün xüsusi bazalar təşkil ediləcək), Ermənistana yeni silahların, hərbi təyinatlı texnologiyaların verilməsi və. s. Həmçinin ABŞ-nin regionda ən böyük səfirliyi (2 min nəfər) Ermənistanda saxlaması, Ermənistanda hazırda amerikalı hərbi instruktorların, Pentaqonun nəzarət etdiyi xüsusi hərbiləşdirilmiş strukturların olması da bunun tərkib hissəsidir.

Görünən budur ki, Cənubi Qafqazda yeni bastion və gərginlik mənbəyi yaradılır. Bunun arxasında bilavasitə ABŞ dayanır. ABŞ dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi neoimperialist siyasətini indi də Cənubi Qafqaz regionunda reallaşdırmağa çalışır.

Bir sözlə, 5 aprel görüşü bir daha təsdiq etdi ki, Ermənistan geri dönüşü olmayan tunelə salınıb və Qərbdən asılı vəziyyətə düşüb. Əlbəttə ki, uzun illər Rusiyanın himayəsi altında yaşayan bir ölkənin belə bir addım atması rəsmi Moskvanı da ciddi narahat etməyə bilməz. Elə həmin görüş yekunlaşdıqdan dərhal sonra Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin yaydığı bəyanat da bunu təsdiqləmiş oldu. Rusiya XİN həmin sənəddə bəyan etdi ki, Moskva ABŞ-Avropa İttifaqı-Ermənistan formatında Brüsseldə keçirilən görüşü Cənubi Qafqazı geosiyasi qarşıdurmaya sürükləmək üçün "kollektiv Qərb"in növbəti cəhdi kimi qiymətləndirir. Regiondan kənar qüvvələrin Cənubi Qafqazın işlərinə məsuliyyətsiz və destruktiv şəkildə müdaxiləsi, region ölkələri və onların qonşuları arasında nifaq salmaq istəyi regionda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf üçün olduqca mənfi nəticələrə, yeni haçalanmış fikirlərin yaranmasına, həmçinin nəzarətdən kənar gərginliyin artmasına səbəb ola bilər. "Aydındır ki, Qərb Ermənistanı Cənubi Qafqazda son dərəcə təhlükəli planlarını həyata keçirmək üçün vasitəyə çevirmək istəyir. Bizə məlumdur ki, Vaşinqton və Brüssel efemer vədlər altında Ermənistanın KTMT və AİI-ni tərk etməsinə, Rusiya hərbi bazasının və sərhədçilərinin çıxarılmasına nail olmağa çalışırlar", - deyə bəyanatda qeyd edilirdi. Moskva hesab edir ki, Cənubi Qafqazda həm regional, həm də ikitərəfli xarakterə malik problemli məsələlər 2023-cü il oktyabrın 23-də Tehranda Ermənistanın da iştirak etdiyi "3+3" məşvərət platformasının ikinci iclasında razılaşdırılmış "regional məsuliyyət" prinsipinə uyğun olaraq həll edilməlidir.

Beləliklə, bütün proseslər göstərir ki, Ermənistan yenə də alət rolunu oynamaqda davam edir. İndi də Qərbə meyillənən Hayastanı yaqin ki, heç də xoş günlər gözləmir. Lakin dəqiq bəlli olan budur ki, Ermənistan üçün təhlükəsizlik modeli yalnız Azərbaycanın təklif etdiyi sülh modelidir. Bu təhlükəsizliyin Qərbdə axtarılması Ermənistan üçün böyük problemlər yaradacaq və belə demək mümkünsə, bu ölkəni Ukrayna, Suriya, Livanın aqibəti gözləyir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.6.